**M.A.RƏCƏBOVA (ELYASOVA)**
*müəllim*
*e-mail: melake_elyasova@mail.ru*
**:https://orcid.org/0000-0002-4841-3950**

**Bakı Slavyan Universiteti**
(Bakı şəh., S.Rüstəm küç., 33)

**10.62021/0026-0028.2024.4.167**

# XALİDƏ HASİLOVANIN HEKAYƏLƏRİNDƏ 90-CI İLLƏR HADİSƏLƏRİNİN TƏCƏSSÜMÜ

***Xülasə.*** *Xalidə Hasilova "Xoruzlu dəsmal" adı altında toplanmış hekayələrində 90-cı illər hadisələrini bütün gerçəkliyi ilə oxucusuna çatdırmağı bacarmışdır. Bu hekayələrdə biz xalqımızın yaşadığı faciələrə və bu zaman kəsiyində düşmənə qarşı necə mübarizə apardığına şahid oluruq. Yazıçı hekayələrində bir çox problemləri təsvir etməyi bacarmışdır. Bu problemlər Xalidə Hasilovanın hekayələrində müxtəlif ədəbi qəhrəmanların yaşadığı hadisələrdə öz əksini tapmışdır. Nadir kişi qürbətdə yaşamaq məcburiyyətində qalmış, Vaqif xalqına qarşı baş verən amansızlığın intiqamını almış, Güldəstə əzab-əziyyətlə böyütdüyü düşmən balasının xəyanəti ilə üzləşmiş, jurnalist Samirə mənfur düşmənlərin əhaliyə qarşı amansız hərəkətlərini xalqa çatdırmaq üçün öz canından keçmişdir. Leyla isə düşmənə qalib gəlmək üçün ermənilərin mövqeyinə onlara kəşfiyyata getmişdir. Bu kimi məsələlərin təhlili məqalənin əsas qayəsini təşkil edir.*

***Açar sözlər:*** *müharibə, arzu, qorxu, intiqam, şəhidlik*

**Giriş:** Müxtəlif dövrlərdə ədəbiyyatın əsas mövzularında biri müharibə olmuşdur. Ədəbiyyatda müharibənin təsviri insan münaqişəsinin mürəkkəbliyini və çoxşaxəli xarakterini əks etdirir. Azərbaycan ədəbiyyatında da müharibə mövzusunda yazılmış əsərlər çoxdur. Lakin bəzi əsərlərdə müharibənin ön, bəzilərində isə arxa cəbhəsi təsvir edilmişdir. Ön cəbhənin təsvir olunduğu əsərlərdə müharibənin bütün gerçəklikləri aydın şəkildə, arxa cəbhənin təsvirində isə müharibənin yaratdığı çətinliklər, baş verən çətinliklərlə mübarizə və ya məğlubiyyət təsvir edilmişdir.

Tədqiqat üçün Xalidə Hasilovanın 1990-cı illərdə qələmə aldığı "Xoruzlu dəsmal" adı altında toplanmış hekayələri təhlilə cəlb edilmişdir. Bu hekayələrdə xalqımızın ötən əsrin 90-cı illərində yaşadığı faciələr, cəbhə həyatı, yaşantıları bütün reallıqları ilə təsirli şəkildə əks etdirilmişdir.

**Vətən həsrəti ilə başlanan, Qanlı Yanvarla bitən tale:** 1991-ci ildə qələmə alınan "Yollara yağan qanlı qərənfillər" hekayəsi 20 Yanvar hadisələrindən bəhs edir. Hekayədəki hadisələr əsərin baş qəhrəmanı olan Nadir kişinin ətrafında cərəyan edir. Nadir kişi İkinci Dünya müharibəsi zamanı əsir düşmüş və uzun illər öz ailəsinə həsrət qalaraq qürbət həyatı yaşamağa məcbur olmuşdu. "İndi o günlərdən qırx ildən də çox keçmişdir. Ancaq ürəyi hələ də dözür. Müharibə başlayanda iyirmi yaşı vardı" [1, s. 8]. Müharibə başlayan zaman Nadir kişinin körpəsi yenicə dünyaya gəlmişdi, o öz körpəsini doyunca bağrına basa bilməmiş, qəlbində övlad həsrəti ilə cəbhəyə yollanmışdı. Cəbhəyə yola düşəndə o heç düşünmürdü ki, bu yol onun üçün bu qədər uzun, çətin və keşməkeşli olacaq. Nadir kişinin qənaətinə görə, müharibə tez bir zamanda bitəcək və o da öz ailəsinin yanına qayıdacaqdır. Gedişat heç də elə olmadı, arzular, ümidlər puç oldu.

İlk döyüşlərdə əsir düşən Nadirin ağır günləri bununla başladı. O, uzun müddət yük vaqonlarında çalışdı, dözülməz dərdlərə, əziyyətlərə məruz qaldı. Eyni zamanda bu müddət ərzində tif xəstəliyi ilə mübarizə aparmalı oldu. Bu müddət ərzində onu yıxılmağa qoymayan

qəlbindəki ümid hissi idi. Nə vaxtsa vətəninə, ailəsinin yanına geri qayıdacağı düşüncəsi ona güc-qüvvət verirdi. Nadir kişi yuxularında da övladının onu arzuladığını, səslədiyini görür və bütün gecələri yuxusuz keçirirdi. "Ata, hardasan, niyə gəlmirsən?" [1, s. 9].

Nadirə öz vətənini xatırladan yeganə şey hər gün səhər tezdən banlayan xoruzun səsi idi. Həyat yoldaşı Fray Gertruda (ikinci həyat yoldaşı) da qonşular kimi hər zaman deyinir, xoruzu satmasını xahiş edirdi. Lakin zamanla hər kəs buna öyrəşdi. Amma illər keçsə də, Nadir kişi qürbətdə yaşamağa alışa bilmədi. Nadir kişi müharibə bitəndən sonra İsveçin gözəl guşələrindən birində məskunlaşmış və ikinci həyat yoldaşı ilə də burada tanış olmuşdu. Onların övladı yox idi. Bəlkə də Fray Gertrudanın da onun öz ailəsini tapmasına çalışması bununla bağlı idi. Gertruda hər gün həyat yoldaşının yuxusuz gecələrinə şahid olmuşdu. Məhz buna görə onun öz arzularına çatmasına dəstək olurdu.

Nadir kişinin əsas arzusu öz ailəsinə, vətəninə qovuşmaq idi. Ən böyük qorxusu isə məhz geri dönən zaman onları son dəfə xatırladığı kimi görə bilməmək idi. Bu arzu hissi ona güc versə də, digər yandan qorxu hissi onu məhv edirdi. Onun təkcə ümid yeri düşərgə yoldaşı Kərim idi. O söz vermişdi ki, ailəsini tapacaq və Nadirdən onlara xəbər yetirəcək. Kərimin söylədiklərindən belə məlum oldu ki, ailəsinin ünvanı dəyişib, lakin bütün bunlara baxmayaraq, o ünvanı tapmışdı. Onu qarşılayan isə Nadirin oğlu yox, nəvəsi idi. Həmyerlisi nəvəsinin babasına necə oxşadığını həvəslə danışsa da, Nadirin içindəki narahatlıq onu rahat buraxmırdı, niyə oğlu yox, nəvəsi idi onu qarşılayan. Hətta tezliklə nəvəsinin onu viza ilə Bakıya dəvət edəcəyi xəbərini də verdi, lakin gözlədiyi sevinci görə bilmədi. Kərim bilərəkdən onun oğlundan söz açmırdı. Çünki uzun illər həsrətini çəkdiyi övladının ölüm xəbərini vermək heç də asan deyildi. Kərim bütün söhbəti nəvəsinə gətirib çıxardığı üçün Nadir anladı ki, oğlu salamat deyil. Sanki içində bir durğunluq yarandı, çünki bu ötüb keçən illər ərzində o hər gün özünə bu sualı verirdi: "Görəsən kimə oxşayıb? Ata qayğısı, ata nəsihəti görməyən balam. Əgər sağdırsa, bəs nə üçün məni axtarmır? – deyə düşünərdi" [1, s. 13]. İndi ona məlum oldu ki, nə üçün onun oğlu başqaları kimi atasını axtarıb tapmayıb. Nadir ömrünün cavan çağında əhd-peyman bağlayıb evləndiyi həyat yoldaşını soruşmaq istədi, lakin ürəyi gəlmədi. Birbaşa yox, dolayı yolla sualına cavab aldı ki, onun qoyub getdiyi evdə indi nəvəsi, gəlini və altı yaşlı nəticəsindən başqa heç kim yaşamır.

İndi onun üçün yeni bir ümid işığı yaranmışdı, vətəninə geri dönəcəyi və nəvəsini görmək arzusu ilə alışıb-yanırdı. Lakin heç də hər şey onun arzuladığı kimi olmadı, təyyarə meydanında onu heç kim qarşılamadı. Və ən təəccüblüsü də hər tərəfdə asılan qara bayraqlar idi. Nadir kişi başa düşmürdü ki, nə baş verib. Sonradan ona məlum oldu ki, üç gün əvvəl Bakıda böyük dəhşət yaşanıb.

– "Necə bəyəm, xəbəriniz yoxdur? Üç gün bundan qabaq burada qan sel kimi axıb".

– Yenə ermənilərlə? Bəyəm ermənilər Bakıya hücum ediblər?

– Yox, bu dəfə ordu bizləri qırdı" [1, s. 14].

Bütün bu sözlər sanki onun ürəyinə ox kimi sancılırdı və qəlbindəki sevinc hissi o anda yox oldu, kədər hissi onu bürüdü. O artıq nəvəsi üçün narahat olmağa başlamışdı, özünə təsəlli vermək üçün düşünürdü ki, bəlkə yaralanıb, ona görə onu qarşılamağa gəlməyib. Fikirləşirdi ki, tale ona bir də belə böyük zərbə vurmaz. Övlad dərdi ilə çırpınan ürəyi artıq nəvəsi üçün narahat idi.

Nadir bütün illər ərzində vətəninə qayıdacağı günləri səbirsizliklə gözləmişdi, lakin heç də həyat arzuladığı kimi olmadı. Vətəninin hər guşəsində qara bayraqlar asılmış, bütün yol boyu qanlı qərənfillər düzülmüşdü. O artıq vətəninə gəldiyi üçün peşmanlıq hissi keçirirdi: "Gəlməsəydim, bunları öz gözlərimlə görməzdim, kaş bir az tez, ya da gec gələydim, bu günləri görməkdənsə hərbi düşərgələrdə olsaydım yaxşı olardı" [1, s. 16].

Nəvəsinin ünvanına çatanda ona hər şey aydın oldu. Vəfat edən nəvəsi idi, uzun illər həsrətini çəkdiyi övladının yadigarına da qovuşmaq nəsib olmadı Nadir kişiyə. Nəvə ilə babanın görüş məkanı Şəhidlər Xiyabanı oldu. Ölkələr dolaşaraq həvəslə gəldiyi vətənində həyat ona zərbələrin ən böyüyünü vurdu... Vətən həsrəti... Övlad həsrəti... Nəvə həsrəti... daha nələr. "Orijinallığı, süjet

quruluşu ilə diqqəti cəlb edən "Yollara yağan qanlı qərənfillər" hekayəsi ruhu, ovqatı ilə səkkiz hekayəni bir-birinə bağlamış, bütövlük yaratmışdır. Adı çəkilən hekayədə bir ailədən dörd nəfərin – babanın, oğulun, nəvənin və nəticənin faciəsi göstərilmişdir" [5, s. 190-191].

**Dostdan düşmənə: Vaqif və Samvelin qarşılaşması:** "Xoruzlu dəsmal" (1991) hekayəsi cəbhə həyatından, ön cəbhədə gedən döyüşlərdən, düşmənə qarşı xalqımızın mübarizəsindən və çəkdiyi çətinliklərdən bəhs edir. Bu hekayənin iki əsas qəhrəmanı var: Vaqif və Mehri nənə. Əsəri oxuduqca oxucuya məlum olur ki, Mehri nənə döyüşlər zamanı oğlunu və ailəsini itirmiş və indi övladının yadigarı ilə yaşayırdı. Vaqif Politexnik İnstitutunun üçüncü kursunda oxuyurdu. Onlar televizordan hər gün baş verən döyüşləri izləyirdilər. Günlərin bir günü Vaqif və yoldaşları qərara gəlirlər ki, döyüş bölgəsinə yollansınlar. Amma Vaqif bunu nənəsindən gizlətməyə çalışırdı. Çünki nənəsinin neçə illərdir övlad dərdi çəkdiyinin fərqindəydi, şahidi olmuşdu. Ağdama getməzdən əvvəl Vaqif və dostları Şəhidlər Xiyabanını ziyarət etdilər. Bununla da döyüşdə həlak olanlara, şəhidlərə söz verdilər ki, onların qanlarını yerdə qoymayacaqlar. "Ata, – deyə özünü ağlamaqdan güclə saxlayırdı. Sənin intiqamını almağa gedirəm. Xeyir-dua ver mənə, ata. Ölümün mənə düşmənə nifrət etməyi öyrətdi. Bu vaxtadək aldanmışıq. Bu torpaqda ermənilər bizə çox qan uddurub. Daha dözmək mümkün deyil. Nalə ərşə qalxıb, mən getməliyəm" [1, s. 22]. Vaqif nitqini tamamlamışdı ki, sanki qeybdən atasının səsi eşidildi: "Get, oğul, – dedi. Allah nəzərini sənin üstündən əsirgəməsin. Ancaq ehtiyatlı ol, qəfil güllədən özünü qoru. Sən çox məkrli bir düşmənlə cəngə gedirsən. Bizim qanımızı yerdə qoyma, oğul..." [1, s. 22]. Atasının övladına nəsihətindən oxucuya bəlli olur ki, o da düşmənin namərd gülləsinə tuş gəlmişdi....

Hekayənin sonrakı səhifələrində artıq Vaqif və yoldaşlarının döyüş bölgəsinə çatdığının şahidi oluruq. Onların ilk diqqətini çəkən və narahat edən, düşmənin snayper gülləsinin istiqamətini təyin etmək idi. Vaqif çox tədbirli şəkildə bunu təyin etməyi bacardı. Amma onu təəccübləndirən snayperçi düşmənin kimliyi oldu. Düşmən ona çox tanış gəlirdi... Sonradan Vaqifə aydın olur ki, bu Samveldi... İllərlə bir məhəllədə yaşadığı, çörək kəsdiyi Samvel... Samvelin əsir düşməsindən sonra Vaqif düşmən snayperinə tuş gəlir. Məlum olur ki, digər snayperçi də onun bacısıdır.

Buradan oxucuya bir daha aydın olur ki, illərlə bizim torpağımızda yaşayan, çörəyimizi yeyib, suyumuzu içənlər indi bizə düşmən kəsilib. Onların cavabını sadəcə intiqam almaqla vermək mümkündür. İllər əvvəl Xalidə Hasilovanın qələmə aldığı qələbə motivləri indi artıq XXI əsrdə öz gerçəkliyinə qovuşmuşdu. Vətənimizin igid övladları düşməndən intiqamımızı almış, torpaqlarımızı məkrli düşməndən azad etmişlər.

Hekayənin adına diqqət etsək görərik ki, yazıçının hekayəyə belə bir ad verməsi də səbəbsiz deyildi. Çünki sonda nənə öz nəvəsini döyüşə gedərkən verdiyi xoruzlu dəsmal sayəsində tanıyır.

**Yad qanın xəyanəti: uşaq kimi sevilən, düşmən kimi ayrılan:** "Kaş sən də olmayaydın" (1992) hekayəsi övladları olmayan Şahnaz və Xosrovun qapılarına qoyulan körpəni öz övladları kimi böyüdüb başa çatdırmaqlarından bəhs edir. Hekayə Şahnazın ermənilər tərəfindən döyülməsi ilə başlayır. Xəstəxanaya yerləşdirilən Şahnazın ona qan verən Güldəstə ilə söhbətindən sonra bütün məsələlər aydın olur. Məlum olur ki, onların övladlığa götürdükləri uşaq sən demə erməni imiş... Rüstəm adı verdikləri oğlan böyüyəndən sonra Rusiyaya getmiş və rus qızı ilə evlənmişdir. On il keçməsinə baxmayaraq, bir dəfə də olsun ailəsinə baş çəkməmiş, məktub da yazmamışdır. Xosrov kişinin də ölümünə səbəb məhz övladının belə vəfasız çıxması olmuşdur. Bir zamanlar qonşu olduğu düşmən imiş onların faciələrinin səbəbkarları... Əsərin sonunda oxucuya aydın olur ki, zamanında Xosrovun kolxoz sədri olduğuna görə qonşu kənddən Anuş adlı qadın uşağı onların qapısına buraxır ki, sonradan övladı sayəsində vardövləti ələ keçirsin. Şahnaza da bu məsələlər sonradan məlum olur. Hansı səbəblərdən qonşu qadın tez-tez onun sandığı ilə maraqlanırmış və on ildən sonra oğlundan gələn məktub onun şübhələrini doğrultdu... Xəstəxanaya gələn Rüstəm onu əziyyətlə böyüdən ananın halına heç yanmadı, ilk sualının qızıl ilə bağlı olması və gəldiyi gündən qonşu kənddən olan Anuşgildə qaldığını biləndə Şahnaz daha deməyə söz tapmadı. Buradan belə bir məsəl yada düşür: "Ot

kökü üstə bitər”... Erməni qanı daşıyan birindən mərhəmət gözləmək mənasızdır... Zamanında özlərini dost kimi göstərərək torpaqlarımıza göz dikən yağı düşmənlər illər ərzində xalqımızı saysız-hesabsız bəlalara düçar etmiş, ağrı-acılara məruz qoymuşdular...

**Ana, jurnalist, vətənpərvər: Səmirənin son nidası:** “Son nida” (1992) hekayəsində də yazıçı Qarabağda gedən döyüşlərdən bəhs edir. Səmirə adlı jurnalist Qarabağda baş verən dəhşətləri dünyaya çatdırmaq üçün gərgin döyüşlərin getdiyi ön cəbhəyə yollanır. Onun ən böyük narahatlığı qoyub getdiyi övladı idi. Düşmən gülləsinə tuş gələn zaman da son nidası “İlham” olur. Yazıçı hekayədə rus jurnalistin ermənilərə tərəfdar çıxdığını, onların xalqımıza qarşı olan vəhşiliklərini deyil, döyüşdə ölən erməni əsgərini videolentə almaq istəməsi ilə sübuta yetirir. Lakin Səmirə əsl vətənpərvər kimi davranaraq ondan azərbaycanlı yaralıları, yandırılan evləri, öldürülən insanları lentə almağı tələb edir.

Yazıçı hekayədə yatağında öldürülən qoca ananın təsvirini verməklə ermənilərin xalqımızın başına gətirdikləri dəhşətləri aydın şəkildə oxucuların diqqətinə çatdırmağa çalışmışdır. Hekayənin sonu Vətən uğrunda öz canlarını qurban verərək həlak olan polis əməkdaşlarının və jurnalistin ölümünün təsviri ilə bitir. Qarabağa reportaj üçün gedən Səmirə həlak olur. Sonda onun qanlı döyüşlərdən bəhs edən gündəliyi çap olunur. Xəbərin başlığı belə idi “Bu gecə dəhşətli yuxu gördüm. İlhamı gördüm, aman Allah” [1, s. 50].

Bu hekayədə qadın jurnalist surətinin yaradılması da təsadüfi deyildir, Xalidə Hasilova iyirmi ildən çox “Azərbaycan qadını” jurnalının redaktoru olaraq, XX əsrdə Azərbaycan qadınlarının keçdiyi həyat yolunu, onların ictimai həyatda, əmək meydanında, mədəniyyət aləmində qazandığı nailiyyətləri” [6, s. 8] təsvir etmişdir.

**Gizli tapşırıq: kəşfiyyatçı Leylanın vətən borcu:** “Kəşfiyyatçılar” (1992) hekayəsində biz müharibəyə könüllü olaraq gedən tibb bacısının düşmən ərazisinə kəşfiyyata getməsinə, düşmənin zəif cəhətlərini öyrənib onları necə tələyə salmasına şahid oluruq. Hekayənin baş qəhrəmanı Leyla Tibb Texnikumunun ikinci kurs tələbəsi olmasına baxmayaraq, igidliyi, cəsarəti ilə seçilirdi. Komandirlərin onu ciddiyə almamalarına rəğmən, təkidlə özünü sübut etməyə çalışır, vurğulayırdı ki, döyüşlərin getdiyi yerlərə yaxşı bələddir. Ondan yaxşı həmin yerləri heç kim tanıya bilməz. Çünki zamanında ailəsi ilə orada yaşamışdı. Doğma torpaqları ermənilər tərəfindən işğal olunandan sonra Bakıya köçmüşdür. Sonda Komandir Leylanın getməsinə razı olsa da, gənc şəfqət bacısını tək buraxmadı və ən yaxşı döyüşçülərdən birini onunla göndərdi. Sonda biz Leylanın və Əhmədcanın düşmənin bütün planlarını pozduqlarına, onların öz dinamitləri ilə özlərini partlatdıqlarına şahid oluruq. Xalidə Hasilova Leyla obrazı ilə dönə-dönə sübuta yetirməyə çalışır ki, vətənimizin mərd qızları var və heç də oğlanlardan geri qalmırlar. Vətənin hər bir qarışı torpağı üçün düşmənlə mübarizəyə hazırdırlar.

Yazıçı Elçin Mehrəliyev də monoqrafiyasında müharibə ilə bağlı fikirlərini qeyd etmişdir: “Qara Yanvar – Azərbaycanın düçar və cəlb olduğu və indiyə qədər tamamlanmamış müharibənin başlanğıcı, bədnam proloqudur. Belə ki, Ermənistanın Azərbaycana qarşı işğalçı müharibəsini əvvəlcə Rus imperiyasının ordusu başladı, ondan sonra ermənilər onu davam etdirdilər, məhz bu hadisədən sonra biz bir-birinin ardınca kənd, qəsəbə və şəhərlərimizi itirdik” [3, s. 133].

**Nəticə** olaraq qeyd etmək istərdik ki, Xalidə Hasilovanın 1990-cı illərdə yazdığı hekayələr Azərbaycan xalqının müstəqillik mübarizəsi və Qarabağ müharibəsi dövründə yaşadığı ağır faciələri, cəbhə həyatını realist və duyğusal şəkildə əks etdirir. Onun əsərlərində 20 Yanvar faciəsi, Vətən sevgisi, düşmənlə mübarizə və şəhidlik motivləri əsas yer tutur. Hasilovanın hekayələri, həm də döyüş şəraitində qadın qəhrəmanların rolunu önə çəkir və onların Vətənin müdafiəsində göstərdikləri şücaəti vurğulayır. Yazıçının əsərləri xalqın həmin dövrdə yaşadığı itkiləri və mübarizəni gələcək nəsillərə çatdırmaqla, Azərbaycan ədəbiyyatında silinməz izlər qoymuşdur.

**Məqalənin elmi yeniliyi:** Məqalə müharibə mövzusunun ədəbiyyatda insan münaqişəsinin mürəkkəbliyini əks etdirən bir tema olduğunu, Azərbaycan ədəbiyyatında isə ön və arxa cəbhələrin vəhdətdə təsvir olunduğunu nümayiş etdirir. Xalidə Hasilovanın tədqiqata cəlb edi-

lən hekayələri 1990-cı illərdə yaşanan çətinlikləri və xalqın mübarizəsini dərindən əks etdirir. Eyni zamanda həmin dövrün tarixi hadisələrini fərqli baxış bucağından təqdim edir. Tədqiqat işi X.Hasilovanın yaradıcılığında müharibənin yaratdığı faciələri, vətən həsrətini və insan taleyini əsas götürərək oxucunun müharibə psixologiyasını anlamasına kömək edir.

**Məqalənin tətbiqi əhəmiyyəti:** bizə elə gəlir ki, təqdim olunan məqalə "Müharibə mövzusunun ədəbiyyatda proyeksiyası" ilə bağlı araşdırmalarda əhəmiyyətli ola bilər.

## Ədəbiyyat


1. Hasilova, X. Xoruzlu dəsmal (hekayələr) / X.Hasilova. – Bakı: Azərbaycan nəşriyyatı, –1994. –94 s.
2. Mehrəliyev, E. Azərbaycan ədəbiyyatında Qarabağ mövzusu: ideya və sənətkarlıq məsələləri / E.Mehrəliyev. – Bakı: Nurlan, – 2008. – 324 s.
3. Mehrəliyev, E. Müharibə və ədəbiyyat (Qarabağ uğrunda mübarizə və 90-cı illərin Azərbaycan ədəbiyyatı) / E.Mehrəliyev. – Bakı: Azərnəşr, – 2000. – 228 s.
4. Məmmədbəyova, S. Xalidə Hasilovanın yaradıcılıq yolu: / filologiya elmlər namizədi dissertasiyasının əlyazması / S.Məmmədbəyova. – Bakı: BDU, – 2006. – 149 s.
5. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: [2 cilddə] / – Bakı: Elm və təhsil, – c.1. – 2016. – 800 s.
6. Yusifli, V. İzi də qalıb, sözü də // Azərbaycan. – 2015. – 19 aprel. – s.8.


**M.A.Rajabova (Elyasova)**

**The Reflection of the Events of the 1990s in Khalida Hasilova's Stories**

***Summary***


In her collection of stories titled "The Towel with the Rooster", Khalida Hasilova vividly conveys the events of the 1990s to her readers. These stories reveal the tragedies endured by the people and depict their struggle against the enemy during that period. The writer skillfully portrays a range of social issues, which are reflected through the experiences of various literary characters in her stories. For instance, Nadir is forced to live in exile, while Vagif seeks vengeance for the merciless actions committed against his people. Guldasta faces the betrayal of a child she raised with much hardship, only to realize that he sides with the enemy. Journalist Samira sacrifices her life to inform the public about the cruel acts of the enemy against civilians, and Leyla courageously undertakes a reconnaissance mission to infiltrate enemy positions to contribute to her people's victory. Analyzing these issues forms the central theme of the article.


***Key words:*** *war, desire, fear, revenge, martyrdom*

**М.А.Раджабова (Эльясова)**

**Отражение событий 90-х годов в рассказах Халиды Хасиловой**

***Резюме***


В своем сборнике рассказов под названием «Полотенце с петухом» Халида Гасилова ярко передает события 1990-х годов своим читателям. Эти рассказы раскрывают трагедии, пережитые народом, и показывают его борьбу против врага в тот период. Писательница искусно изображает различные социальные проблемы, которые отражаются в судьбах разнообразных литературных персонажей её произведений. Например, Надир вынужден жить в изгнании, в то время как Вакиф стремится отомстить за безжалостные действия, совершенные против его народа. Гюльдэстэ сталкивается с предательством ребенка, которого она растила с большими трудностями, только чтобы обнаружить, что он встал на сторону врага. Журналистка Самира жертвует своей жизнью, чтобы донести до общества жестокие действия врагов против мирного населения, а Лейла смело отправляется на разведку на позиции противника, чтобы внести свой вклад в победу своего народа. Анализ этих вопросов составляет центральную тему статьи.


***Ключевые слова:*** *война, желание, страх, месть, мученичество*

*Rəyçi: f.ü.f.d., dos. F.M.Məmmədov*
*Redaksiyaya daxil olub: 06.11.2024*